# Biz işğalla barışmadıq

(Əvvəli 1-ci səhifədə).

vəsində qarşılıqlı dəstək formatında özünü göstərdi. Bu siyasi etimad bu gün də cənab Prezident İlham Əliyevin liderliyi ilə daha da möhkəmləndirilir. Enerji sahəsində əməkdaşlıq Azərbaycan–BƏƏ münasibətlərinin mühüm dayaqlarından biri olsa da, bu əməkdaşlıq artıq sırf iqtisadi çərçivəni aşaraq siyasi-strateji xarakter alıb. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, eyni zamanda yaşıl enerji gündəliyinə verdiyi töhfələr ölkəmizi qlobal enerji diplomatiyasının əsas iştirakçılarından birinə çevirib. COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın məhz BƏƏ-də qəbul olunması da iki ölkə arasında yüksək siyasi etimadın bariz nümunəsidir.

Hüquqi və institusional baza siyasi tərəfdaşlığın dərinləşdiril-



məsinə xidmət edir. Cənab Prezident İlham Əliyevin səfəri zamanı imzalanan sənədlər, o cümlədən "Cənub Qaz Dəhlizi" ilə bağlı razılaşma və müdafiə sahəsində əməkdaşlıq niyyətləri Azərbaycan–BƏƏ münasibətlərinin təhlükəsizlik müstəvisində də yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bu sənədlər regionda sabitliyin və qarşılıqlı maraqlara əsaslanan təhlükəsizlik arxitekturasının formalaşmasına xidmət edir. Səfər çərçivəsində keçirilən "Sülh Qalxanı – 2026" birgə hərbi təlimi isə Azərbaycan və BƏƏ-nin terrorizmə və təhlükəsizlik təhdidlərinə qarşı ortaq mövqedən çıxış etdiyini nümayiş etdirdi. Diqqətçəkən məqamlardan biri də cənab Prezident İlham Əliyevin Ermənistanın baş naziri ilə görüşü oldu. Azərbaycanın sülh təşəbbüslərinə sadiqliyi, normallaşma prosesini ikitərəfli əsasda və real nəticələr üzərində qurmaq istəyi bir daha təsdiqləndi. Bu, Azərbaycanın regional liderlik missiyasının və məsuliyyətli siyasi mövqeyinin göstəricisidir.

Azərbaycan–BƏƏ strateji tərəfdaşlığı yalnız ikitərəfli münasibətlərin inkişafı deyil, eyni zamanda regional sabitlik, qlobal əməkdaşlıq və yeni siyasi konfiqurasiyaların formalaşması baxımından mühüm model kimi çıxış edir. Cənab Prezident İlham Əliyevin siyasi iradəsi və prinsipial mövqeyi bu tərəfdaşlığı uzunmüddətli və dayanıqlı əməkdaşlıq formatına çevirir.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ səsi"**

# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşa-



Həmzəli kəndi.

dığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah-halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin fevral ayında səyyar qəbul Həmzəli kəndində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ



rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



Tüntül kəndi.

**"Qəbələ səsi".**
**Fotolar S. Umuyevindir.**

# Gələcək həyatın təminatçısı

2 fevral - Gənclər Günüdür. Bu günün bayram edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu. 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradıldı. Heydər Əliyevin prezidentliyi dövründə onun dəstəyi ilə 1996-cı il 2 fevral tarixində gənclərin 1-ci forumu keçirildi. 2 fevral 1997-ci ildən isə prezidentin sərəncamı ilə Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı.

Hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. 2007-ci ildə prezidentimiz "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı"nın təsdiq edilməsi barədə sərəncam imzaladı. Həmçinin ölkəmizdə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu. Bu isə gənclərimizin dövlət quruculuğuna, ölkə rəhbərliyinin apardığı daxili və xarici siyasətin icrasında daima ona dəstək olacaq qətiyyətini daha da möhkəmləndirdi.

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına xüsusi diqqət yetirilir. Respublikamızda bir sıra Olimpiya idman komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Onu da qeyd edək ki,

(Ardı 4-cü səhifədə).

# Leyla Əliyeva və Alena Əliyeva Gəncə Memorial Kompleksi ilə tanış olublar

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci il sentyabrın 27-də – Anım Günündə açılışı həyata keçirilən bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır.

Kompleksin birinci mərtəbəsində muzey ekspozisiyası, ikinci mərtəbədə isə müxtəlif tədbirlərin keçirilməsi üçün zal yerləşir.

Leyla Əliyeva və Alena Əliyeva, həmçinin Gəncədə Milli Qəhrəman Natiq Qasımovun ailəsini ziyarət edib.

Görüş zamanı qəhrəmanımızın xatirəsi dərin hörmətlə yad edilib, ailə üzvləri ilə səmimi söhbət aparılıb.

Natiq Qasımov Birinci Qarabağ müharibəsi zamanı Ağdam-



Xankəndi istiqamətində döyüşlərdə misilsiz igidlik göstərib. O, müharibə zamanı beş gün təkbaşına mühasirədə qalsa da erməni işğalçılarına sonadək müqavimət göstərib.

Görüş zamanı şəhidin şərəfli ömür və döyüş yolu bir daha xa-